## Asif Ata

### ATAYA MÜNASİBƏT
(“Yol” Kitabından)

Ata – Ocağın Mahiyyəti, Təzahürü, Canlı “Mən”idir.

Ata Sözü – Ocaqçı üçün Mütləq Qanundur.

Ataya Ruhən qovuşmaq – Ocaqçının Ülvi Arzusudur.

Ataya Mütləq İnam Odu Ocaqçı Qəlbində daim yanır.

“Ata haqqı” Andı – Müqəddəsdir!

Atanın Ocaqçıya Hökmü Mütləqdir, Ülvi Mahiyyətə malikdir.

Atanın Hörməti – Ocağın Ali Sərvətidir.

Ocaqçının Ataya Səcdəsi – Ruhani Ləyaqətdir.

Ocaqçı Ata Ləyaqətini göz bəbəyi kimi qoruyur.

Ataya qalxan əl – kəsilməlidir.

Ataya qarşı cüzi Hörmətsizlik – dəhşətli Qəbahət sayılmalı və Ocaqçı nifrəti ilə damğalanmalıdır!

Atanın Ocaqda Səlahiyyəti Mütləqdir!

Ocaqçılar Atanın həm Övladları, həm Köməkçiləri, həm də Ardıcıllarıdır.

Ata Səlahiyyətinə ən kiçik etinasızlıq – Mənəvi eybəcərlik sayılmalıdır.

Atanın Böyüklüyü, Qeyri-Adiliyi Onun çiyninə düşən Yükün Böyüklüyü və Qeyri-adiliyindən doğur. Bu səbəbdən də Ataya pərəstiş təbii, gərəkli, zəruri Övladlıq Münasibəti hesab edilməlidir!

Ocaqçı Atanı canlı İdeal sayır.

Ocaqçı çətin anlarda Ata Qüdrətinə müraciət edir.

Ocaqçının Ataya Məhəbbəti – Ocağın iti qılıncıdır.

Ona qarşı edilən həmlə – cinayətdir.

Ocaqçı Ataya xidmət etməklə – Mənəviyyata, İdraka, Müqəddəsliyə xidmət edir.

Bu səbəbdən də həmin xidmətlə fəxr edir.